

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 194 (23.105)

12 oktyabr 2018-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 45-ci kilometrliyindən, H.Z.Tağıyev qəsəbəsindən başlayan 92 kilometr uzunluğundakı yol 1B texniki dərəcəyə uyğun olaraq inşa edilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 11-də Quba rayonuna səfər çərçivəsində avtomobil yolunda tikinti işlərinin gedişi ilə tanış olublar.

* * *

Oktyabrın 11-də Xızı rayonunun Yeni Yaşma və Şurabad qəsəbələrinin ərazisindəki 50 MVt-luq “Yeni Yaşma” Külək Elektrik Parkının açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

* * *

Həmin gün Quba rayonunun İdrisqışlaq-Qasımqışlaq-Xaspolad-Zərqava-Aspərəsti-Çayqışlaq avtomobil yolu istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 11 yaşayış məntəqəsini birləşdirən və uzunluğu 33 kilometr olan yolun açılışını edib.



## Yeni Azərbaycan Partiyası rayon təşkilatlarında tədbirlər keçirilib



***Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatı İbadulla kəndində Azərbaycanın Dövlət müstəqilliyinin 27-ci ildönümünə həsr olunmuş tədbir keçirib.***

Tədbirdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayevin məruzəsi dinlənilib. Məruzə ətrafında müzakirələrdə İbadulla kənd ərazi ilk partiya təşkilatının sədri Baxşəli Abdullayev, inzibati ərazi dairəsi üzrə nümayəndə Parlar Əsgərov, gənc partiya üzvü Ülkər Məmmədova və başqaları çıxış ediblər.

Qeyd olunub ki, xalqımızın ən böyük sərvəti kimi müstəqilliyin bərpa edilməsi dövlətçilik tarixində mühüm əhəmiyyətə malikdir. Lakin ermənilərin işğalçılıq siyasəti və daxildəki çəkişmələr müstəqil dövlətimizin varlığını və suverenliyini sual altına qoymuşdu. Məhz bu zaman xalqımız qarşılaşdığı fəlakətlərdən xilas, nicat yolunu ümummilli liderimiz Heydər Əliyevi yenidən siyasi hakimiyyətə gətirməkdə gördü. Xalqın təkidli tələbi ilə 1993-cü ilin iyun ayında ikinci dəfə hakimiyyətə qayıdan ümummilli liderimizin rəhbərliyi ilə qısa müddətdə ölkədə siyasi sabitlik yarandı, bütün sahələr üzrə quruculuq işlərinə başlanıldı, respublika müstəqil inkişaf yoluna qədəm qoydu. Bir vaxtlar müstəqil Azərbaycanın başı üzərində cəmi 23 ay dalğalanan üçrəngli bayrağımız bu gün ən yüksək zirvədə, həm də əbədi dalğalanır.

Qeyd edilib ki, bu illər ərzində müstəqilliyimizin möhkəmləndirilməsi, xalqın rifah halının yaxşılaşdırılması, ölkənin sosial-iqtisadi inkişafı üçün ümummilli liderin həyata keçirdiyi məqsədyönlü tədbirlər bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Məhz bu strategiya nəticəsində ölkəmiz iqtisadi inkişaf sürətinə görə artıq dünyada yüksək yerlərdə qərar tutur.

Tədbirdə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda iqtisadiyyatın inkişaf mərhələləri, aparılan məqsədyönlü islahatlar və qazanılan nailiyyətlər barədə də danışılıb. 1995-ci ildən Naxçıvanda dinamik inkişaf dövrünün başlandığını diqqətə çatdıran natiqlər bildiriblər ki, həyata keçirilən iqtisadi islahatlar qısa tarixi dövr ərzində makroiqtisadi sabitliyin bərqərar olmasını təmin edib. İqtisadiyyatın dinamik inkişafını şərtləndirən məqsədyönlü tədbirlər əhalinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırıb. Muxtar respublikamızın hər bir bölgəsini əhatə edən inkişaf Şərur rayonunun sosial-iqtisadi göstəricilərində də özünü göstərir. Ölkə Prezidentinin və Ali Məclis Sədrinin diqqət və qayğısı sayəsində rayonda mühüm əhəmiyyət kəsb edən infrastruktur layihələri uğurla həyata keçirilir, sosial obyektlər tikilir, yeni istehsal və emal müəssisələri işə salınır, aqrar sahədə mühüm nəticələr əldə edilir. Bu gün qürur duyuruq ki, ulu öndərin siyasi xəttinin davam etdirilməsi nəticəsində müstəqilliyi artıq sarsılmaz, dönməz və əbədi olmuş qüdrətli Azərbaycan Respublikasında yaşayır, işləyir və qurub-yaradırıq.

Tədbirdə bir qrup gəncə Yeni Azərbaycan Partiyasının üzvlük vəsiqələri təqdim edilib.

**Elman MƏMMƏDOV**

* * *

***Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının növbəti şura iclasında 2018-ci ilin doqquz ayının yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib.***

İclası giriş sözü ilə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Sevda Quliyeva açaraq məruzə ilə çıxış edib. Bildirilib ki, bu il müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi həyatında mühüm yer tutan Yeni Azərbaycan Partiyasının yaradılmasının 26-cı ildönümü tamam olur. Ümummilli liderimiz Heydər Əliyevin ideyalarına əsaslanaraq çox böyük və şərəfli yol keçən, ölkəmizin bugünkü inkişafında mühüm xidmətləri olan Yeni Azərbaycan Partiyası ötən illər ərzində xalqın ümidlərini doğruldaraq ümumxalq partiyasına çevrilib.

Qeyd olunub ki, göstərilən dövlət qayğısının və həyata keçirilən tədbirlərin nəticəsində Kəngərli rayonu da ötən illərdə böyük inkişaf yolu keçib. Müstəqilliyimizin bəhrəsi olan bu rayonda ötən illər ərzində bütün yaşayış məntəqələrində müasir infrastruktur yaradılıb, abad yollar salınıb. Həyata keçirilən yeni infrastruktur layihələri hesabına əhalinin həyat səviyyəsinin yüksəldilməsi, yeni iş yerləri hesabına məşğulluğun təmin olunması istiqamətində mühüm işlər görülüb.



Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının bəhs olunan dövrdəki fəaliyyətindən danışan Sevda Quliyeva bildirib ki, təşkilat öz işini partiyanın V Qurultayının və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının V Konfransının qərarlarının yerinə yetirilməsi istiqamətində, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Siyasi Şurasının 2017-ci il 16 mart tarixli iclasının tələbləri səviyyəsində qurub.

Vurğulanıb ki, təşkilatın 31 ərazi ilk partiya təşkilatında birləşən 3 min 107 partiya üzvündən 1246-sı, yəni 40,1 faizi qadınlardan, 1007-si, yəni 32,4 faizi isə gənclərdən ibarətdir. Qeyd olunan dövrdə rayonda partiyanın sıralarına qəbul olunanların sayı 89 nəfər olub ki, bunların da 53-ü qadın, 63-ü isə gənclərdir.

2018-ci ilin hesabat dövrü ərzində təşkilatın 3 şura, 9 idarə heyəti yığıncağı keçirilib, məqsədyönlü tədbirlər görülüb. Ərazi ilk partiya təşkilatlarının fəaliyyətinə nəzarət artırılıb, onlara metodik köməkliklər göstərilib. İlk partiya təşkilatlarında kargüzarlığın düzgün aparılması diqqətdə saxlanılıb. Rayonda tikilən kənd mərkəzlərində partiyanın ərazi ilk təşkilatları üçün hər cür şəraiti olan iş otaqlarının ayrılması bu təşkilatların aktiv fəaliyyətinə geniş imkanlar yaradıb. Ötən dövrdə ərazi ilk partiya təşkilatlarında gənc və yaradıcı qüvvələrin partiya sıralarına qəbul edilməsinə nail olunub. Qeyd olunub ki, təşkilati işlər bundan sonra da diqqət mərkəzində saxlanılacaq.

Tədbirdə Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatı Gənclər Birliyinin sədri Süleyman Süleymanov, Mədəniyyət Şöbəsi ərazi ilk partiya təşkilatının sədri Ziyafəddin Babayev, rayon Mərkəzi Xəstəxanası ərazi ilk partiya təşkilatının sədr müavini Ramidə Rüstəmova, Xıncab kənd ərazi ilk partiya təşkilatının sədri Bahar Hüseynova çıxış ediblər.

**Babək İSMAYILOV**

***“Azerfon” şirkəti korporativ sosial məsuliyyət strategiyası çərçivəsində muxtar respublikanın ali təhsil ocaqlarında təhsil alan tələbələr üçün təqaüd proqramı həyata keçirib.***

## Fəal tələbələr aylıq təqaüdə layiq görülüblər



Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi ilə birgə təşkil olunan layihənin nəticələrinə əsasən dərslərində fəallıq göstərən 5 tələbə müəyyən edilib. Onlar tədris ilinin sonunadək aylıq 200 manat məbləğində təqaüdlə təmin olunacaqlar.

Rabitə və Yeni Texnologiyalar Nazirliyində bu münasibətlə təşkil olunan tədbiri nazir Rövşən Məmmədov açaraq bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27-də imzaladığı “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” Sərəncamla müvafiq ixtisaslar Rabitə və Yeni Texnologiyalar Nazirliyinin hamiliyinə verilib. Sərəncamın icrasına uyğun olaraq həmin tələbələrlə mütəmadi görüşlər keçirilir, ixtisaslarına dərindən yiyələnmələri üçün lazımi addımlar atılır. Təşkil olunan tədbir də məhz bu istiqamətdə görülən işlərin davamıdır.

Qeyd olunub ki, müasir dövrdə informasiya texnologiyaları həyatın bütün sahələrini əhatə edir və bu gün muxtar respublikada heç bir sahəni informasiya texnologiyalarından kənarda təsəvvür etmək mümkün deyil. Dünya təcrübəsi göstərir ki, qısa vaxtda çox, həm də keyfiyyətli nəticə əldə etmək üçün bu sahənin inkişafı və daim yenilənməsi vacib məsələdir. Sözügedən inkişaf isə yalnız peşəkar kadrların hesabına mümkündür. Keçirilən bu tədbir də məhz informasiya texnologiyaları sahəsi üzrə təhsilin səviyyəsinin artırılması və yüksəkixtisaslı kadrların hazırlanması işinin stimullaşdırılması məqsədi daşıyır.

Tədbirdə “Azerfon” şirkətinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Əziz Axundov çıxış edərək təqaüdə layiq görülən tələbələri təbrik edib, sosial layihənin müsbət nəticələr verəcəyinə əminliyini bildirib.

Tələbələr adından Aytən Seyidova və Allahqulu Qəmbərov layihənin təşkilatçılarına minnətdarlıq edib, yaradılan imkanlardan səmərəli istifadə edəcəklərini diqqətə çatdırıblar.

Sonra tələbələrə aylıq təqaüd və qiymətli hədiyyələr təqdim edilib.

**✍ Nail ƏSGƏROV**

## Sığorta işinin təşkili məsələləri müzakirə edilib

*Dünən Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyində dövlət büdcəsindən maliyyələşən təşkilatlarda sığorta işinin təşkili məsələləri ilə bağlı tədbir keçirilib.*



Tədbiri giriş sözü ilə açan maliyyə nazirinin müavini Elçin Əliyev sığortanın müasir cəmiyyət həyatındakı rolundan və dövlət maliyyə siyasətinin həyata keçirilməsindəki əhəmiyyətindən danışıb. Sonra Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov çıxış edərək bildirib ki, muxtar respublikamızda sosial-iqtisadi inkişafın sürətlənməsi ilə sığortaya olan maraq artmaqdadır. Çünki insanların həyatı, sağlamlığı və əmlakının qorunması üçün zəruri tədbirlər görülsə də, qaçınılması mümkün olmayan hadisələr baş verə, insanlara hər hansı bir formada zərərlər dəyə bilər.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasında sığorta işinin müasir tələblər səviyyəsində qurulması istiqamətində ölkəmizdə qüvvədə olan qanunlara əsasən bir sıra icbari və könüllü sığorta növləri üzrə işlər aparılmaqdadır. Bu baxımdan sığortanın müasir tələblərə uyğun şəkildə qurulması işində 2011-ci il 30 noyabr tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Muxtar respublikada sığorta fəaliyyəti və qarşıda duran vəzifələr barədə” keçirilən müşavirənin xüsusi əhəmiyyəti vardır.

Tədbirdə iştirak edənlərə avtonəqliyyat vasitəsi sahiblərinin, daşınmaz əmlakın icbari sığortalarının mahiyyəti, əhəmiyyəti, həyata keçirilməsi prosesi barədə ətraflı məlumat verilib.

Maliyyə nazirinin müavini Elçin Əliyev tədbirə yekun vuraraq baş verən gözlənilməz hadisələrdən dəyən zərərlərin əvəzinin ödənilməsi zamanı sığorta işinin əhəmiyyətini bir daha qeyd edərək hər bir idarə, müəssisə, təşkilat və vətəndaşları bu sahədə fəallıq göstərməyə çağırıb.

**✍ Əli CABBAROV**

İcmal

# İnkişaf və tərəqqi ünvanına çevrilən Naxçıvan mədəniyyətlərarası dialoq məkanı kimi şöhrət qazanır



***Muxtar respublikamızda həyata keçirilən uğurlu sosial-iqtisadi inkişaf strategiyası nəticəsində iqtisadiyyatın şaxələnməsi təmin edilib, makroiqtisadi sabitlik qorunub saxlanılıb, özəl bölmənin inkişafı üçün əlverişli investisiya və rəqabət mühiti formalaşıb, əhalinin maddi rifahı və həyat səviyyəsi xeyli yüksəlib. Aparılan kompleks quruculuq işləri nəticəsində inkişafa, müasirliyə qovuşan yaşayış məntəqələrimizin siması tamamilə dəyişib, yeniləşib.***

İnsan amilinə verilən yüksək qiyməti özündə təcəssüm etdirən bu quruculuq prosesində kənd yaşayış məntəqələrimiz özünəməxsus yer tutur. Görülən bu tədbirlər Şərur rayonunun Yengicə kəndini də əhatə edib, bura müasir yaşayış məntəqəsinə çevrilib, şəhər rahatlığı yaradılıb. Əvvəllər kənd sakinləri içməli su təminatından əziyyət çəkirdisə, muxtar respublika rəhbərinin diqqət və qayğısı nəticəsində artıq bu məsələ də öz həllini tapıb. Sentyabrın 5-də bu yaşayış məntəqəsində içməli su şəbəkəsinin açılışı olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak edib, Yengicə kəndinin içməli su şəbəkəsinin istifadəyə verilməsini bildirən qurğunu işə salıb.

"Şərur şəhər və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində kənddə 30 kilometrdən artıq içməli su xətləri çəkilib, 900-ə yaxın su birləşmələri həyata keçirilib. Bununla yaşayış məntəqəsinin 4 min 600 nəfərdən çox əhalisi keyfiyyətli içməli su ilə təmin olunub. Bu gün Yengicə kəndi Dünya Səhiyyə Təşkilatının tələblərinə cavab verən içməli su ilə 24 saat təmin edilir. Bu, muxtar respublikamızda insan amilinə verilən ən yüksək qiymətdir.

Naxçıvanda mədəniyyət və turizm sahələrinin, milli-mədəni irsimizin qorunması və inkişaf etdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılıb. Əsrlərdən bəri milli kimliyimizi özündə yaşadan tarix və mədəniyyət abidələrinə göstərilən qayğının nəticəsidir ki, həmin abidələr qorunur, onların bərpası diqqətdə saxlanılır, qalalar, türbələr, məscidlər, buzxanalar və hamamlar ilkin görkəmi saxlanmaqla bərpa olunur. Bu, Azərbaycanın tarixi keçmişinə böyük diqqət, gələcəyinə əsaslı töhfədir. Nəzər yetirsək, görərik ki, bu abidələr heç də sıradan tarixi abidələr deyildir. Onların hamısı İslam dini və mədəniyyətinin formalaşmasını özündə əks etdirən tarixi-dini tikili, bəziləri dünya əhəmiyyətli, bəziləri isə Azərbaycanın milli dövlətçilik ənənələrini özündə yaşadan tarixi abidələrdirlər. Onlar Naxçıvanda əsrlərboyu formalaşan sivilizasiyanın "daş təmsilçiləri" kimi çıxış edirlər. Ona görə də həmin abidələri Azərbaycana, ümumilikdə isə dünyaya yenidən bəxş edənləri, tarixi yaşadanları tarix də mütləq yaşadacaqdır.

Qədim diyarımızda bu istiqamətdə görülən işlərin davamı olaraq on səkkizinci əsrdə tikilən və sonralar dağıntılara məruz qalan Yengicə kəndindəki Şərq hamamı sentyabrın 5-də bərpadan sonra istifadəyə verilib.

Ali Məclisin Sədri bu münasibətlə keçirilən tədbirdə iştirak edib, Yengicə kəndindəki Şərq hamamının "Muzey günləri" qrafikinə daxil edilməsi, muxtar respublikada yaşayan və fəaliyyət göstərən sənətkarların qeydiyyata alınması, eləcə də onların bundan sonra da lazımi iş şəraiti ilə təmin olunması barədə müvafiq tapşırıqlar verib.

Naxçıvan şəhərindəki tarixi binalar da qorunur, yenidən qurulur. Hazırda Naxçıvan şəhərinin Atatürk küçəsindəki 6 nömrəli binada yenidənqurma işləri aparılır. Tikinti işləri başa çatdıqdan sonra binada Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti və Cəmşid Naxçıvanskinin ev-muzeyi yerləşəcəkdir. Sentyabrın 13-də Ali Məclisin Sədri binada aparılan yenidənqurma işləri ilə tanış olub.

Reallıqdır ki, cəmiyyətin inkişafının hərəkətverici qüvvəsi olan təhsil intellektual potensialı formalaşdırır, vətəndaşı cəmiyyətdə ən məhsuldar təfəkkürlü qüvvəyə çevirir, milli və mənəvi dəyərləri qoruyur və tənzimləyir, insan kapitalını formalaşdırır. Bu gün qürurla deyə bilərik ki, Heydər Əliyev ideallarına sədaqətin, Onun işıqlı yolunun uğurla davam etdirilməsinin nəticəsində Naxçıvan maddi dəyərlərin insan kapitalına çevrildiyi bir məkandır. Doğma diyarımızda bütün sahələr üzrə kadrların hazırlanmasına xüsusi diqqət yetirilir, səhiyyə müəssisələrinin tibbi kadrlara olan tələbatının ödənilməsi üçün ardıcıl tədbirlər görülür. Naxçıvan Tibb Kollecinin binasında əsaslı yenidənqurma işlərinin aparılması da bu istiqamətdə həyata keçirilən məqsədyönlü tədbirlərin davamıdır. Yenidənqurma işlərindən sonra kollec müasir tibbi təhsil müəssisəsinə çevrilib. Müəllim və tələbələr üçün hərtərəfli tədris şəraiti yaradılıb. Hazırda kollecdə elektron tədris vasitələri tətbiq olunmaqla, 39 qrupda 8 ixtisas üzrə 702 tələbə təhsil alır.

Sentyabrın 13-də Ali Məclisin Sədri Bilik Günü ərəfəsində Naxçıvan Tibb Kollecinin binasının əsaslı yenidənqurmadan sonra istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edib, kollecin elektron dərslik fondunun zənginləşdirilməsi, müəllim və tələbələrin təcrübə mübadiləsinin davam etdirilməsi, tədris prosesində qədim tibbi metodların və ənənələrin də öyrədilməsi barədə tapşırıqlar verib.

Yuxarıda qeyd etdiyimiz kimi, bu gün muxtar respublikamızın kənd yaşayış məntəqələrində quruculuq işləri ən yüksək səviyyədə aparılır. Bununla hətta ucqar yaşayış məntəqələrimizdə də sosial-mədəni infrastruktur obyektləri müasir standartlara uyğun tikilərək istifadəyə verilir, sahibkarlığın, buna paralel olaraq kənd turizminin inkişafı üçün münbit şərait yaradılır, insanların yaşayış şəraiti yaxşılaşdığından onların yurda, torpağa bağlılığı daha da artır. Rahatlığı şəhərlərimizdən seçilməyən kəndlərimizdə yaşayan təşəbbüskar sakinlərin sayı daha da artıqca, burada müxtəlif təsərrüfat sahələri yaradılır, yeni iş yerləri açılır, yerli məhsul istehsalı çoxalır. Sentyabrın 15-də Şərur rayonunun İbadulla kəndi də muxtar respublikanın belə abad yaşayış məntəqələri sırasına daxil olub.

Həmin yaşayış məntəqələrimizdə gələcəyimiz olan uşaq və yeniyetmələrin ən müasir şəraitdə təhsil almaları üçün də kompleks tədbirlər həyata keçirilir, gözəlliyi ilə gözoxşayan, hər cür maddi-texniki bazaya malik məktəb binaları tikilib istifadəyə verilir.

İllər öncə muxtar respublika rəhbəri demişdi ki, vaxt gələcək kəndlərdə ən hündür binalar məktəb binaları olacaq. Artıq bu sözlər həyatda öz təsdiqini tapıb: muxtar respublikanın kəndlərində ən hündür binalar məktəb binalarıdır. Bu, bir daha təsdiq edir ki, dövlətimiz təkcə bu günümüzə yox, gələcəyimizə də böyük qayğı göstərir. Bilik Günündə İbadulla kəndində istifadəyə verilən müasir məktəb binası da bunun növbəti nümunəsidir.

Məktəb binasının açılışında iştirak edən Ali Məclisin Sədri muxtar respublikanın ümumtəhsil, ali, orta ixtisas və peşə məktəblərinin şagird və tələbələrini, Heydər Əliyev adına Hərbi Liseyin kursantlarını, pedaqoji kollektivləri Bilik Günü münasibətilə təbrik edib, gənclərə müraciətlə deyib: ***"Müasir dünyanın reallıqları onu göstərir ki, müstəqillik və sabitlik şəraitində yaşamaq, təhsil almaq heç də hər kəsə nəsib olmur. Hər bir gənc bugünkü müstəqilliyimizin, sabitliyimizin və inkişafımızın qədrini bilməli, ulu öndərimizin əsəri və əmanəti olan qüdrətli Azərbaycanın əsl vətəndaşına çevrilməlidir. Siz bu gün nə qədər yaxşı oxusanız, elmlərə və biliklərə nə qədər dərindən yiyələnsəniz müstəqil Azərbaycanın gələcəyi də bir o qədər parlaq və işıqlı olacaqdır".***

Təhsil ocağında yaradılan şəraitlə tanış olan Ali Məclisin Sədri elektron lövhəli sinifdə Heydər Əliyev Muzeyi ilə ümumtəhsil məktəbləri arasında keçilən interaktiv dərsi izləyib. 214 təhsil müəssisəsinin qoşulduğu interaktiv dərsdə şagirdlərə ümummilli liderimiz Heydər Əliyevin həyatı, siyasi və dövlətçilik fəaliyyəti barədə ətraflı məlumat verilib.

Həmin gün İbadullada kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası, Xanlıqlar-Vərməziyar-İbadulla-Qışlaqabbas-Ərəbyengicə avtomobil yolu və İbadulla Radio-Televiziya Verici Stansiyasının yeni binası istifadəyə verilib. Bütün bunlar hər bir sakinin rahatlığına xidmət edir. Çünki müasir və abad yollar, tikilən əhəmiyyətli sosial obyektlər inkişaf və rahat həyat deməkdir. Bu isə dövlətimizin öz vətəndaşlarına qayğısının əyani ifadəsidir.

Hər il Məhərrəm ayı və onun Aşura günü muxtar respublikada İslam dəyərlərinə uyğun qeyd olunur. 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı kimi əhəmiyyətli bir missiyanın daşıyıcısı, dünyada İslam mədəniyyətinin bayraqdarı olan Naxçıvan şəhərindəki Cümə məscidində sentyabrın 20-də Aşura mərasimi keçirilib.

Ali Məclisin Sədri Aşura mərasimində iştirak edib.

Muxtar respublikada aparılan geniş tikinti-quruculuq işləri sırasında yol təsərrüfatı da xüsusi çəkiyə malikdir. Müasir avadanlıqlarla təmin olunmuş yeni asfalt-beton zavodlarının, qum-çınqıl karxanaları və bitum anbarlarının istifadəyə verilməsi, yeni texnikaların alınması yol tikintisinin əhatə dairəsini xeyli genişləndirib. Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyinin maddi-texniki bazası möhkəmləndirilib, istehsal olunan asfaltın vaxtında yerlərə çatdırılması və asfalt-beton örtüyünün keyfiyyətlə salınması üçün yeni mexanizmlər alınıb. Yol infrastrukturu müasirləşdirilərkən diqqətdə saxlanılan əsas məsələlərdən biri də yerli tikinti materiallarından istifadə etməklə keyfiyyətli asfalt istehsalına nail olmaqdır. Sentyabrın 21-də Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyinin yeni Asfalt-Beton Zavod Kompleksinin istifadəyə verilməsi də məhz bu sahədə görülən işlərin davamıdır.

Zavodun açılış tədbirində iştirak edən Ali Məclis Sədrinin qeyd etdiyi kimi, muxtar respublika ərazisində kifayət qədər daş və qum-çınqıl ehtiyatı vardır. Bu, keyfiyyətli asfalt istehsalında mühüm amildir. Yerli xammal əsasında işləyəcək asfalt-beton zavod muxtar respublikada yol tikintisinə böyük təkan verəcəkdir. Hər il Naxçıvanda 100 kilometrlərlə yeni avtomobil yolları çəkilir. Muxtar respublikanın şəhərdaxili, rayon və kəndlərini birləşdirən avtomobil yolları yenidən qurulur, keyfiyyətli asfalt örtük salınır. Hazırda Culfa-Ordubad magistral, Babək rayonunun Cəhri-Yuxarı Buzqov və Ordubad rayonunun Dəstə kənd, eyni zamanda Naxçıvan şəhərinin avtomobil yolları yenidən qurulur. Həmin yollarda işlərin keyfiyyətlə aparılması üçün müasir asfalt-beton zavodun qurulmasına ehtiyac var idi. Çünki əvvəlki illərdə quraşdırılmış zavod öz istismar müddətini başa vurduğundan keyfiyyətli asfalt istehsal olunmurdu. Yeni asfalt-beton zavodun qurulması muxtar respublikada bundan sonra da keyfiyyətli yolların çəkilməsinə imkan verəcəkdir. Müəssisənin fəaliyyətə başlaması gənc mütəxəssislərin işlə təminatına da öz töhfəsini verir.

Sentyabrın 21-də Ali Məclisin Sədri idarəetmə otağında zavodu işə salıb, alınan yeni texnikaların açarlarını təqdim edib.

Bu gün sabitliyin və əmin-amanlığın hökm sürdüyü muxtar respublikamız özünün sosial-iqtisadi inkişafı, abadlığı ilə hər kəsin diqqətini cəlb edir. Multikultural dəyərlərin yaşadıldığı Naxçıvan artıq dünyanın mütərəqqi təşkilatlarının tədbirlərinə ev sahibliyi edir, Şərqlə Qərb arasında müxtəlif əməkdaşlıq əlaqələrinin inkişaf etdirildiyi mühüm körpüyə çevrilir. Təsadüfi deyil ki, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı statusunu daşıması Naxçıvanın İslam dünyasındakı yerini müəyyən edirsə, ötən ay Avropa İttifaqının üzvü olan dövlətlərin diplomatik nümayəndələrinin iştirakı ilə Naxçıvanda "Avropa günləri"nin keçirilməsi bu qədim diyarın Qərb üçün də əhəmiyyətini ortaya qoyur.

Sentyabrın 22-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Naxçıvan şəhərində keçirilən "Avropa günləri"ndə iştirak etmək üçün muxtar respublikaya gələn Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas və Avropa İttifaqına üzv ölkələrin Azərbaycandakı səfirləri ilə görüşüb. Ali Məclisin Sədri Naxçıvan şəhərində "Avropa günləri"nin keçirilməsini muxtar respublikaya olan etimadın və tədbirlərin yüksək səviyyədə təşkilinə inamın ifadəsi kimi dəyərləndirib.

Sentyabrın 23-də "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində "Avropa şəhərciyi"nin açılış tədbiri keçirilib. Ali Məclisin Sədri tədbirdə iştirak edib, nümayiş olunan sərgilərə baxıb, Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri Kestutis Yankauskasa Naxçıvan xalçası hədiyyə edib.

İslam ölkələri də bu gün Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə əlaqələrinin inkişafına xüsusi önəm verir. Sentyabrın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Küveyt Dövlətinin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Səud Əbdüləziz əl-Rumi ilə görüşüb. Ali Məclisin Sədri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Küveyt Dövləti arasında qarşılıqlı əlaqələrin inkişafı üçün imkanların olduğunu diqqətə çatdırıb.

Sürətlə inkişaf edən, regionda və dünyada nüfuzu durmadan artan Azərbaycan Respublikası strateji müttəfiqləri ilə əlaqələrini genişləndirir, özünün milli maraqlarını ön planda tutaraq bölgənin aparıcı dövlətləri ilə qarşılıqlı əməkdaşlığı müasir dövrün tələbləri çərçivəsində inkişaf etdirir. Bu mənada, Rusiya Azərbaycan arasında mövcud əlaqələr həm rus, həm də Azərbaycan xalqlarının maraqlarına cavab verir. Bu gün Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Rusiyanın regionları arasında iqtisadi-ticarət və humanitar əlaqələrin, xüsusən turizmin inkişafı üçün geniş imkanlar mövcuddur.

Sentyabrın 29-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Rusiya Federasiyasının iqtisadi inkişaf naziri Maksim Oreşkin ilə görüşüb.

Ali Məclisin Sədri qonağı ümummilli liderimiz Heydər Əliyevin vətəni Naxçıvanda görməkdən məmnunluğunu bildirib, təhsil və turizm sahəsindəki əlaqələrdən bəhs edib, əməkdaşlıq imkanlarını diqqətə çatdırıb.

*Muxtar respublikada inkişafın yeni konturlarını müəyyən edən perspektivli dövlət siyasətinin həyata keçirilməsi, bütün sahələr üzrə innovativ yeniliklərin tətbiq olunması onu çiçəklənən, abadlaşan möhtəşəm bir diyara çevirib. Ulu öndər Heydər Əliyevin strateji inkişaf xəttinin həyata keçirilməsinin, qurucu rəhbərin öz vətəninə, elinə bağlılığının, Vətən və dövlət sevgisindən doğan gərgin əmək və misilsiz əzmkarlığın nəticəsidir ki, tarixən "Şərqin qapısı" adlandırılan qədim diyarımız bu gün regional informasiya və mədəniyyət mərkəzlərindən biri kimi şan-şöhrət qazanıb. Naxçıvan vaxtilə bizim xəyallarımızın belə çata bilmədiyi zirvələrə ucalıb.*

**Rauf KƏNGƏRLİ**

Oxunması zəruri olan kitablar

# Xalqımızın tarix salnaməsi

***Dünya mədəniyyətinə çox böyük töhfələr vermiş Azərbaycan xalqının ən möhtəşəm tarixi abidəsi "Kitabi-Dədə Qorqud" dastanıdır. VII əsrdən üzübəri ozanların Oğuz yurdunu oymaq-oymaq gəzib yaydığı "Kitabi-Dədə Qorqud" boyları bu ərazidə türk dilində danışan Azərbaycan xalqının yaşadığını sübut edən əhəmiyyətli bir mənbədir. Dastanda cərəyan edən real tarixi hadisələr Azərbaycanda baş verib.***




Hələ VI əsrin sonu, VII əsrin əvvəllərində Ağqoyunlu tayfaları Dərbənddən Zəncana qədər olan geniş bir ərazidə – Böyük Qafqazın ətəklərində, Qarabağda, Naxçıvanda, Göyçə gölü ətrafında yaşayıblar. Soykökü "xanlar-xanı Bayandur xana" gedib çatan Ağqoyunlular sonralar paytaxtı Diyarbəkir olan Oğuz dövləti yaradırlar. Bu dövləti idarə edən sülalə Bayandur xanın adı ilə "Bayandurlar" adlanır. Oğuzlar Göyçə gölü ilə Arpaçay arasındakı dağları Alagöz yaylaqları və ya Alagöz dağları adlandırırdılar.

Oğuz türklərinin tarixindən bəhs edən Əbu Bəkr əl-Tihrani əl-İsfahaninin "Kitabi Diyarbəkriyyə" əsərində Ağqoyunluların ulu babası Oğuz xaqanın Göyçə gölü ətrafında vəfat etdiyini yazır. Dastanda adıçəkilən bu göl vaxtilə Oğuz elinin sərhədi daxilində yerləşən, indi isə Ermənistan ərazisində qalan Göyçə gölüdür.

Dastanın boylarında təsvir olunan həyat və məişət şəraiti oğuzların oturaq həyat sürdüyünü təsdiq edir. Ağban elinin oymaqlarında əsas peşə taxıl əkib-becərmək olub. "Qatar-qatar dəvələri", "tövlə-tövlə şahana atları", saysız-hesabsız qoyun sürüləri olan oğuzlar bu peşələri müstəqil istehsal sahələrinə çevirir, oğuz sənətkarlarının düzəltdiyi əl işləri hər yerdə şöhrət qazanır, həmin məmulatlardan ən çox hərbi işlərdə istifadə edilirdi.

Bu fikri dastanda bir çox məmulatların, silah adlarının çəkilməsi də sübut edir. Boylarda cəbbəxanalardan polad və dəmirdən hazırlanan məmulatlardan – yonucu, balta, bıçaq, nal, üzəngi, cilov, üçayaq qazanlardan ətraflı danışılır. Oğuz sənətkarlarının əl işləri öyünülür.

Oğuz türkü at belində doğulub. Bu igidlər üçün hərbi iş daimi məşğuliyyət sayılırdı. Türk oğlu, oğuz övladı kiçik yaşlarından türk döyüş qaydalarını bilməli, qılınc, nizə, çomaqla davranmağı bacarmalı idi. Böyüyən hər igid qılınc çalıb, qurşaq tutub, igidlik göstərməli, ad qazanmalı idi. Tayfanın hər bir üzvü döyüşçü sayılırdı. Elə ki döyüş başladı, hər boy öz istiqamətini tutar, düşmənlə üz-üzə gələndə hər bölük sərkərdəsi düşmən sərkərdəsilə təkbətək vuruşardı. Sonra dəstələr arasında döyüş başlayar, düşmən bayrağının yerə salınması, ordugahın ələ keçirilməsi ilə başa çatardı. Ələ keçirilmiş düşmən xəzinəsi döyüşçülər arasında bölüşdürüldükdən sonra ümumi şənlik başlayardı. Oğuz qadınları ər igidlərdən geri qalmazdı – at çapar, qılınc oynadar, Vətənin dar günündə böyük, iti polad qılınca qurşanıb ərlə, qardaşla birlikdə döyüşə yollanardı.

"Kitab-Dədə Qorqud"un bütün boylarında igidlərin Vətən sevgisindən geniş bəhs edilir. Dastanda Azərbaycan torpaqlarına aramsız hücumlar edən yadellilərə qarşı mübarizə, xüsusilə parlaq əks olunub. Bu tarixi gerçəklik "Bəkil oğlu İmran" boyunda da görünür. Buradan təsvir olunur ki, oğuzun başbiləni Dədə Qorqud gürcü feodallarının hücumunun qarşısını almaq üçün sərhədlərin qorunmasını məsləhət görür. Azərbaycanın qərb sərhədlərinin, o cümlədən Bərdə və Gəncənin müdafiəsinə qalxan oğuz ərənləri "polad üzlü qılıncına" and içir, yağı ayağının müqəddəs Vətən torpağına dəyməsinə icazə vermirdilər.

İsmət, namus oğuz qadınları üçün müqəddəsdir. Belə ki, "Salur Qazanın evinin yağmalanması" boyunda əsir düşüb aparılan Burla xatun əri Qazan xanın namusunu qorumaq üçün oğlu Uruzun ətindən bişiriləcək qovurmadan yeməyə razılıq verir.

Hələ X əsrdən çox-çox əvvəl oğuz türklərində pul və maliyyə sistemi fəaliyyət göstərirdi. "Kitabi-Dədə Qorqud" boylarında oğuzların qızıl pullarından, altun axçalarından danışılır. Dastanda "Duxa qoca oğlu Dəli Domrul" boyunda qızıl-gümüş pulu xərcləmək hesabına qurulan şənliklərdən də bəhs olunur. Boylarda vergilərlə bağlı ifadələr də işlədilir. Aydın olur ki, oğuz türklərində vergi natura və pul formasında alınar, 24 sancağa bölünən ölkənin idarə olunmasına, divanxananın saxlanmasına sərf edilərdi. Dastanın ayrı-ayrı boylarından bəlli olur ki, oğuzlar Şam, Rum, o cümlədən Konstantinopolla ticarət əlaqələri saxlayırdılar.

Hələ çox qədimdən, İslamdan əvvəl tək Allaha – Tanrıya inanan oğuzlar xilafət işğalları dövründə İslam dinini qəbul edən türk xalqlarından biridir. Azərbaycan türkləri İslam dinini daha erkən qəbul etməklə yanaşı, bu dinin yayılmasında da mühüm rol oynayırdılar. Mənbələrin birində deyilir ki, Dədə Qorqud 632-ci ildə Ərəbistana gedərək Xəlifə Əbu Bəkrlə görüşür, İslam dinini qəbul edir. Bu da Dədə Qorqudun Məhəmməd Peyğəmbər (s.ə.s) zamanında yaşadığına dair dəlillərdən biridir. Dastanda iki müqəddəs şəhərin – Məkkə və Mədinənin adı hörmətlə, ehtiramla çəkilir, "Tanrı evi Məkkə və Mədinə", – deyə onlardan söhbət açılır. Dastanın girişində İslamın müqəddəs ayini olan Həcc ziyarətindən söz açılması o dövrdə oğuzların İslamı mükəmməl mənimsəməsini təsdiqləyən faktdır. İslamaqədərki dövrlərdə yadellilərə qarşı türk-oğuz bayrağı altında mübarizə aparan Azərbaycan tayfalarının bir-birilə qovuşması ilə türk-islam birliyi yaranır.

Dədə Qorqudun yaşadığı zamanlara aid memarlıq abidələri xalqımızın tarixinin daşlaşmış yaddaşı, zamanların əsrarəngiz nişanəsidir. Lap qədimdən "Qala quran qış", yəni oğuzlardan bu günümüzə qədər gəlib çatan, hər daşında bir tarix yaşadan qalalar, bürclər müxtəlif müdafiə qurğuları kimi yadigar qalıb. Onlardan biri öz əzəmət və qüdrəti ilə çox fatehləri heyrətə salan Əlincə qalasıdır. Qalanın adının "Əlincə" adlanması haqqında müxtəlif fikirlər və yozumlar vardır. Xalq arasında "Əlincə" sözünün qalanın alınmazlığına, əlçatmazlığına işarə olması bildirilir.

"Kitabi-Dədə Qorqud" dastanında ölkəmizin ərazisində olan çoxsaylı karvansaraylardan da söz açılır. Bu abidələrin əksəriyyəti müdafiə məqsədilə möhkəmləndirilmiş tikililər hesab olunur. Onlar Azərbaycandan keçən beynəlxalq ticarət yolları üzərində yerləşirdi.

Dastanın əsl nüsxəsi bizə qədər gəlib çatmasa da, hazırda eposun iki əlyazma nüsxəsi məlumdur. Hər iki əlyazma XV əsrdə əvvəlki əlyazmalardan köçürülüb. Bu əlyazma nüsxələrindən daha mükəmməli bir müqəddimə, on iki boydan ibarət olmaqla, Almaniyanın Drezden, digəri isə bir müqəddimə və altı boydan ibarət olmaqla, Vatikan muzeyində saxlanılır.

"Kitabi-Dədə Qorqud" abidəsi ana dilimizdə yazıya alınmış ilk qədim və möhtəşəm sənət əsəridir.

Dastan alman alimi Fridrix fon Ditsin 1815-ci ildə verdiyi ilk məlumatdan sonra elm aləmində məşhurlaşmağa başlayıb. Belə ki, o, 1815-ci ildə "Basatın Təpəgözü öldürməsi" boyunu almancaya tərcümə etmişdir. Azərbaycanda isə eposu ilk dəfə 1939-cu ildə görkəmli ədəbiyyatşünas Həmid Araslı çapa hazırlayıb. Şəxsiyyətə pərəstişin ifşasından sonra abidə Azərbaycanda geniş şəkildə öyrənilib, onun əsasında film çəkilib. Filmin ssenari müəllifi Azərbaycanın Xalq yazıçısı Anardır.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin 20 aprel 1997-ci il tarixli Fərmanı əsasında "Kitabi-Dədə Qorqud"un 1300 illiyi geniş şəkildə qeyd edilib. Respublikamızda və bir sıra xarici ölkələrdə elmi konfranslar təşkil olunub. 1998-ci ildə YUNESKO-da beynəlxalq simpoziumun təşkili eposun dünya miqyasında təbliği işinə ciddi töhfə verib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar tarixli Sərəncamı ilə dastan yenidən kütləvi şəkildə nəşr olunub. Dövlət başçısının 2015-ci il 20 fevral tarixli digər Sərəncamı ilə "Kitabi-Dədə Qorqud"un alman dilinə ilk tərcüməsi və nəşrinin 200 illiyi ölkəmizdə, eləcə də muxtar respublikamızda geniş şəkildə qeyd edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "Oxunması zəruri olan kitabların Siyahısı"nda "Kitabi-Dədə Qorqud" dastanının da özünə yer alması bu böyük tarixi abidəyə ehtiramın ifadəsidir. Bu dastanın hər evdə olması, hər ailədə oxunması gənc nəsli onun ideya-bədii xüsusiyyətləri əsasında tərbiyə etmək baxımından mütləqdir, zəruridir.

**Bəsirə BUDAQOVA**
***Naxçıvan şəhər 1 nömrəli tam orta məktəbin tarix müəllimi***

---

Tarixi abidələrimiz milli sərvətimizdir

# Monumentallığı ilə fərqlənən milli-memarlıq nümunəsi

***"Təmizlik imandan gəlir" deyimi tarixboyu xalqımızın gündəlik həyatının ayrılmaz ritminə çevrilib. Ölkəmizin bütün bölgələrində olduğu kimi, oğuz yurdu Naxçıvanda da orta əsrlər dövrünə aid kəhrizlərin, hamamların mövcudluğu ulu babalarımızın daim bu amilə həssaslıq göstərməsindən, təmizliyə, paklığa, səliqə-sahmana xüsusi diqqət yetirməsindən xəbər verir. Qədim diyarın ayrı-ayrı guşələrində yerləşən belə tarixi abidələr müstəqillik illərində təmir-bərpa olunaraq həyata qaytarılıb və bu gün yüksək səviyyədə qorunub yaşadılır. Tarixi keçmişimizə, əcdadlarımızın məişət həyatına işıq salan məkanlardan biri də Naxçıvan şəhərinin Heydər Əliyev prospekti ilə "Təbriz" küçəsinin kəsişməsində, Dədə Qorqud meydanında yerləşən, inşası XVIII əsrin ortalarına aid edilən Şərq hamamıdır.***



Şəhər sakinləri arasında bu məkana "İsmayılxan hamamı" da deyilir. Tikiliyə aid yazılı kitabə aşkar edilmədiyindən inşa olunma tarixi dəqiq bəlli deyil və barəsində çox da geniş məlumat əldə edilməyib. Dövlətimizin xalqın keçmişinə, adət-ənənələrinə verdiyi böyük önəm sayəsində hamam binası əsaslı təmir və bərpa edilərək 2005-ci ildə müasir görkəminə qovuşub.

Naxçıvan şəhərinin Sabir küçəsində yaşayan, Kəngərlilər nəslindən olan, yaşı 80-i adlamış Sabir Kəngərli və həyat yoldaşı Nəzakət Kəngərli ilə söhbət zamanı öyrəndik ki, İsmayıl ağa Naxçıvanın hakimi olmuş Kərim Sultan ağa Kəngərlinin oğludur. İsmayıl ağa Pirqamiş məhəlləsində yaşayıb və onun yaşadığı ev məhəllənin ərazisində bu gün də qalmaqdadır. Sabir Kəngərli onu da bildirdi ki, hamam haqda söhbət düşəndə atası Hüseyn ağa Kəngərli daim deyərdi ki, bu hamam İsmayıl ağa tərəfindən inşa olunub və adı da "İsmayıl ağa hamamı" kimi tanınıb. Buradan belə ehtimal yaranır ki, bu gün həmin abidə, əslində, bir vaxtlar "İsmayıl ağa hamamı" adlanıb. Ancaq bu barədə əsaslı fakt olmadığından qəti fikir söyləmək mümkün deyil.

Hamam binasının memarlıq xüsusiyyətləri haqqında ətraflı məlumat əldə etmək üçün Naxçıvan Dövlət Universitetinin Memarlıq kafedrasının müdiri, memarlıq üzrə fəlsəfə doktoru, dosent Gülnarə Qənbərova ilə həmsöhbət olduq. O bildirdi ki, memarlıq üslubuna görə Şərq hamamları ilə eynilik təşkil edən tikilinin ümumi sahəsi 526 kvadratmetr olub, planda düzbucaqlı formada həll edilib. Bina orta əsrlərdə Naxçıvanın memarlıq tikililərində ənənəvi material kimi geniş yayılmış bişmiş kərpiclə inşa olunub. Hamam daxildən memarlıq planlaşma quruluşuna görə dairəvi formada paltardəyişmə zalından, düzbucaqlı formada şərqdən qərbə doğru genişləndirilmiş və mərkəzi günbəzi saxlayan dörd ədəd sütunlu yuyunma zalından, həmin zala açılan buxar otaqlarından və qızdırıcı kameradan ibarətdir.

Hamamın yuyunma və paltardəyişmə zalının mərkəzində dairəvi formada kiçik hovuzlar tikilib. Vaxtilə buraya soyuq su onun yaxınlığındakı kəhrizdən gəlirmiş. Belə ki, su hamamın arxa tərəfində tikilmiş anbara doldurulduqdan sonra kanallar vasitəsilə qızdırıcı kamerada yerləşən tiyana, hamamın divarlarında yerləşdirilmiş saxsı borularla yuyunma zalına və hovuzlara paylanırdı. İsti su isə qızdırıcı kameradan mis qablarla götürülürdü. Tikilinin yuyunma zalı döşəmənin altında yerləşdirilmiş kanallar vasitəsilə (spiral formasında döşəmədə dövr edən saxsı borular) qızdırılırdı. Suyun qızdırılması üçün samandan istifadə olunurdu. Bu yanacaqla qızdırılan hamamlar həftəboyu öz istiliyini sabit saxlayarmış. Boruların içərisində dövr edən isti su yenidən ocaqxanaya qayıdır və proses yenidən baş verirdi. Borunun bir qolu isə divarda quraşdırılmış digər kameraya birləşdirilirdi və isti buxar kamera vasitəsilə xaric olunurdu. Bu kameralar hamamın divarlarında bir neçə yerdə qoyulurdu ki, bununla da daxildə təmiz hava yaradılırdı.

Tikilidəki Naxçıvan hamamlarına xas olan digər əlamətlərdən biri də girişdə, paltardəyişmə və yuyunma zalları arasında ensiz keçidlərin yerləşdirilməsidir. Həmin ensiz və alçaq keçidlər hamamın daxilində bir neçə funksiya daşıyırdı. Belə ki, onlar yuyunma zalının daxilində olan isti havanın soyumasının qarşısını alır, isti havanın paltardəyişmə zalına keçməsinə yol vermir, hamamın daxilində olan temperaturu müəyyən bir zaman daxilində sabit saxlayır, yay aylarında isti havanın hamamın daxilinə keçməsinə imkan vermirdi.

Gülnarə Qənbərovanın sözlərinə görə, hamamın divar hörgüsü ilə yanaşı, zalları və yerləşgələrinin tavan örtüyündə də bişmiş kərpicdən istifadə olunub. Zalların tavanından fərqli olaraq yerləşgələrin tavanı kiçikölçülü dairəvi günbəzlə örtülüb. Yuyunma zalına açılan yerləşgələr kiçik pəncərələr və günbəzin mərkəzində açılmış baca vasitəsilə işıqlandırılıb. Paltardəyişmə zalının tavanında yerləşən ən böyük dairəvi günbəz hamamın əsas elementlərindən biri hesab olunur. Xaricdən günbəzlərin üzərində yarımdairə formasında bacalar qurulub. Sadə formada işlənmiş kiçik memarlıq elementləri günbəzlərə mürəkkəb quruluş verir. Bacalar xaricdən hamamın daxilinə yağış sularının keçməsinin qarşısını alır, daxildəki isti (və ya yay aylarında sərin havanın) havanın tez xaric olmasına imkan vermir, gecələr hamamın işıqlanması üçün buraya lampalar asılırdı.

Hamamın ən maraqlı memarlıq elementlərindən biri də onun baştağıdır. Belə ki, tikilinin bu hissəsi fasad kompozisiyasının önəmli elementlərindən biri olmaqla, memarlıq-bədii obrazının xüsusi monumentallığı ilə fərqlənir. Düzbucaqlı portal daxilində yerləşdirilmiş əyrixətli tağı və giriş qapısı ilə kompozisiya tamamlanır. Hamamın tikintisində bişmiş kərpiclə yanaşı, interyerlərinin bəzədilməsində kaşı və mərmər daşlarından da istifadə edilib. Abidənin daxili bəzəyi günümüzədək gəlib çatmasa da, onun daxili planlaşmasından və xarici quruluşundan görünür ki, bina vaxtilə şəhərin ən önəmli tikililərindən biri olub.

Günümüzdə Şərq hamamı ilin bütün fəsillərində xeyli sayda turistin heyranlıqla tamaşa etdiyi bir tarixi abidədir. Şəhərimizin müasir memarlıq tikililəri fonunda öz sadə memarlıq quruluşu, tavan örtüyündə öz həllini tapmış müxtəlifölçülü dairəvi günbəzləri bu gün hər kəsin diqqətini cəlb edir. Muxtar respublikamıza gələn turistləri heyran edən məqamlardan biri də xalqın tarixi mirasına, soykökünə bu cür yüksək qiymətin verilməsi, tarixi-memarlıq ənənələrinə hörmətlə yanaşılması, onların qorunub saxlanılmasıdır.

**Nail ƏSGƏROV**

# Məktəbəqədəryaşlı uşaqlar hərtərəfli qayğı əhatəsindədirlər

*Uşaqların sağlam böyüməsi, düzgün tərbiyə edilməsi, intellektual biliklərə yiyələnməsi hər bir valideynin istəyidir. Bu istək təbiidir və onun yerinə yetirilməsi üçün müstəqil ölkəmizdə hərtərəfli imkanlar yaradılıb. Bu mənada, uşaqların məktəb yaşına qədər uşaq bağçalarında tərbiyə alması onların gələcək həyatlarında mühüm rol oynayır. Ancaq uşağı bağçaya qoyarkən bəzi valideynlər tərəddüd edirlər: Görəsən, övladıma yaxşı baxacaq, yeməyini vaxtlı-vaxtında verəcək, saatında yatıb-duracaq, onun tərbiyəsi ilə məşğul olacaqlarmı? Bu və bu kimi suallara cavab tapmaq üçün Naxçıvan şəhərindəki 11 nömrəli bağçada olduq.*







Naxçıvan şəhərinin Atabəylər məhəlləsində 1981-ci ildən fəaliyyətə başlayan bağçanın binası 2010-cu il noyabr ayında yenidən qurulub.

Bağçanın müdiri Aynur Əhmədova bağça barəsində bizə məlumat verərək bildirdi ki, bu məktəbəqədər tərbiyə müəssisəsi fəaliyyət göstərdiyi 37 il müddətində dəfələrlə fəxri fərmanlarla, diplomlarla təltif olunub. 2013-cü ildə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Naxçıvan Şəhər İcra Hakimiyyəti ilə birgə keçirdiyi “Milli dəyərlərimiz uşaqların aləmi ilə” mövzusunda müsabiqədə III yeri tutaraq hər iki təşkilatın diplomuna layiq görülüb. Bağçanın istedadlı körpələri 2015-ci ildə Adil Babayev adına Naxçıvan Muxtar Respublikası Uşaq Kitabxanasının xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə təşkil etdiyi “Biz səndən öyrəndik vətənpərvərliyi” adlı şeir müsabiqəsində I, II və III yerləri qazanaraq fəxri fərmanlarla təltif olunublar.

Aynur xanım vurğuladı ki, uşaqların məktəbəqədər tərbiyəsində onların bu yaşlarında insanlara hörmət etməyi öyrənməsi, ilkin təhsil biliklərini qazanmaq çox vacib bir məsələdir. Bağçamızda çalışan kollektiv bunu dərindən dərk edərək öz işini bu istiqamətdə qurur.

Söhbətimizə müəllimə Lamiyə Paşayeva da qoşulur. O deyir ki, uşaqlar hər gün bağçaya gələrkən əvvəlcə səhər idmanı edirlər. Bu həm də onların günə pozitiv başlamasına bir növ vasitəçi olur. Eyni zamanda balacalara rəqslər və məntiqi oyunlar öyrədir, müsabiqələr keçiririk. Məntiqi oyunlarda uşaqlara yalnız istiqamət verilir. Yəni uşaqdan sualın cavabının düşünülərək tapılması tələb olunur. Bu da uşaqlarda elmə həvəsin artmasına kömək edir.

Balacaların hər gün rəsm çəkmək, onu boyamaq kimi məşğuliyyətlərə qatılması onların estetik zövqlərinin inkişaf etdirilməsi məqsədi daşıyır. Bununla uşaqların bu sahədəki qabiliyyətləri də inkişaf etdirilir.

Bağçada müəllimlər tərəfindən hekayələr oxunur, onlara şeirlər əzbərlətdirilir. Bununla uşaqlar məktəbə getməzdən əvvəl bir növ hazırlıq mərhələsi də keçirlər. Bağçada balacaların zehni oyunlara maraqlarını artırmaq da diqqət mərkəzində saxlanılır.

Uşaqlara öyrədilən ilk bilgilər yaş qrupuna görədir. Belə ki, 1-2 yaşında olanlara əşyaların adını, rəngləri ayırd etməyi, 3-4 yaşlılara həndəsi fiqurlar çəkməyi, rəqəmləri saymağı, 5 yaşlılara isə bunlarla yanaşı, sait, samit səslər, əlifba öyrədilir. Bağçada, həmçinin səhnəciklər də hazırlanır. “Kitabi-Dədə Qorqud”, “Balaca şahzadə” kitablarından kiçik parçalar səhnələşdirilərək uşaqlar tərəfindən oynanılıb.

Burada olarkən uşaqların bir neçəsi ilə də söhbət etdik. Onların hər biri bağçanı sevdiklərini, burada yaxşı, əyləncəli vaxt keçirdiklərini, rəngli kubiklərlə oynamaqdan xoşlandıqlarını söylədi. Balaca qızlar bizim üçün həm də “Can Qarabağ”, “Heydər babanın nəvələri”, “Bağçamız” adlı mahnıları ifa etdilər.

Sonda bağçanın tərbiyəçiləri burada yaradılan şəraitə, göstərilən qayğıya görə minnətdarlıq etdilər. Onlar daha səylə çalışacaqlarını, balaca fidanların şən və xoşbəxt böyümələri üçün vəzifələrinin öhdəsindən layiqincə gələcəklərini bildirdilər.

**Telli MUSTAFAYEVA**

# Nəqliyyat vasitələrinin payız-qış mövsümünə hazırlığı ilə bağlı texniki müayinəsi başa çatıb



*Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə Dövlət Nəqliyyat Xidmətinə verilmiş tapşırıqların icrası ilə bağlı bir sıra işlər görülmüş, payız-qış mövsümünü uğurla başa vurmaq üçün hazırlıq tədbirləri həyata keçirilmişdir.*

Ötən müddətdə payız-qış mövsümü ərzində xəttə çıxacaq nəqliyyat vasitələrinin sazlığının yoxlanılması üçün marşrut avtobusları texniki müayinələrdən keçirilmişdir. Bu məqsədlə sərnişindaşıma ilə məşğul olan 301 avtobus yoxlanılaraq xəttə buraxılmışdır.

Bu işlərin davamı kimi oktyabr ayının 3-dən etibarən muxtar respublika üzrə sərnişindaşıma fəaliyyəti göstərən taksilərin də texniki müayinəsi aparılmışdır. Bunun üçün xidmətin mütəxəssislərindən ibarət texniki müayinə komissiyası yaradılmış, Fövqəladə Hallar və Daxili İşlər orqanlarından nümayəndələr dəvət olunmuşdur. Texniki müayinə zamanı avtonəqliyyat vasitələrinin əyləc sistemi, sükan idarə mexanizmi, xarici işıq cihazları, qabaq şüşənin şüşə silgəcləri və şüşəyuyanları, təkərlər və şinlər, mühərrik, yanğınsöndürmə balonu, tibb çantası, qəza üçbucağı və konstruksiyanın digər ünsürləri yoxlanılmış, yanğınsöndürmə balonundan istifadə qaydaları əyani şəkildə nümayiş etdirilmişdir.

Ümumilikdə, 472 taksi texniki müayinədən keçirilmiş, onlardan 454-ü tam saz vəziyyətdə olmuşdur. Texniki tələblərə cavab verməyən 18 taksiyə aşkar olunan nöqsanları aradan qaldırıldıqdan sonra daşımalarla məşğul olmasına icazə verilmişdir.

Qeyd edək ki, muxtar respublikada taksi xidməti nümunəvi təşkil olunmuşdur. Hazırda Naxçıvan şəhərində 200, Şərur rayonunda 70, Babəkdə 60, Ordubadda 23, Culfada 60, Şahbuzda 27, Kəngərlidə 26, Sədərək rayonunda 7, Naxçıvan Şəhər Təsərrüfathesablı Nəqliyyat İdarəsinin tabeçiliyində isə 23 taksi sərnişindaşıma fəaliyyəti ilə məşğuldur. Sürücülərin geyim formasına, istifadə etdiyi avtomaşının təmizliyinə, sərnişinlərlə rəftarına, məxsus olduğu zona hüdudlarındakı fəaliyyətlərinə daim nəzarət olunur.

***Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinin mətbuat xidməti***

*İnformasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı kibercinayətkarlığın meydana gəlməsinə və gündən-günə artmasına da səbəb olub. Birləşmiş Millətlər Təşkilatının hesabatında hər il 1,5 milyondan çox insanın internet vasitəsilə törədilən cinayətlərin qurbanı olduğu və kibercinayət xarakterli fəaliyyət nəticəsində dəymiş ümumi ziyanın 1 milyard dollardan artıq təşkil etdiyi bildirilir.*

# Muxtar respublikamızda kibertəhlükəsizliklə bağlı tədbirlər uğurla həyata keçirilir



Kibercinayətin ən çox yayılmış növü “fişinq” adlanan üsuldur. “Fişinq” kibercinayətin xüsusi növüdür və istifadəçiləri aldatma yolu ilə, adətən, maliyyə xarakterli fərdi məlumatları təqdim etməyə məcbur etməklə həyata keçirilir. Cinayətkarlar bank saytı və ya maliyyə əməliyyatları aparılan istənilən digər sayt kimi görünən saxta veb-saytlar yaradır. Sonra istifadəçiləri bu sayta giriş etməyə sövq edirlər ki, istifadəçilər bu saytda login, parol və ya PIN kod kimi konfidensial məlumatlarını yazsınlar.

“Fişinq”dən qorunmağın bir sıra yolları mövcuddur. İlk olaraq internet istifadəçisi diqqətli olmalıdır, çünki fişinq üçün istifadə olunan linklər həqiqi linklərə çox oxşayır amma diqqətlə baxdıqda linklərdəki fərqi görmək olar. “Fişinq”dən qorunmaq üçün müasir antiviruslardan istifadə etmək və antivirusların bazasını daim yeniləmək lazımdır. Belə ki, hər yenilənmə zamanı bazada qara siyahıya daxil olunmuş “fişinq” xarakterli link və saytların siyahısı olur və siz bu linklərə keçid etdikdə antivirus “fişinq” haqqında xəbərdarlıq edir. Digər yol müasir brauzerlərdən istifadə etməkdir. Müasir brauzerlərin sonuncu versiyalarında fişinqə qarşı tədbirlər var ki, bu, əsas şübhəli saytlara birbaşa keçidləri blok edir.

Bu gün bu kimi kibercinayətlərdən mühafizə və internet təhlükəsizliyinin təmin edilməsi üçün Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən mütəmadi maarifləndirmə tədbirləri aparılır. Belə ki, hər bir istifadəçi təhlükəsizliyi tam mənada başa düşməli, risklərin müxtəlif tiplərini tanımalı və məlumatlarını onlardan necə qorumalı olduğunu bilməlidir. Bundan başqa, istifadəçi əsas təhlükəsizlik qaydalarını bilməli və onlara əməl etməlidir. Bu qaydaları aşağıdakı kimi ümumiləşdirmək olar:

*1. Mürəkkəb parollardan istifadə etməli;*

*2. Müntəzəm olaraq vacib verilənlərin ehtiyat surətlərini çıxarmalı;*

*3. Antivirus proqram təminatından istifadə etməli;*

*4. Şəxsi kompüterlə internet arasında sipər kimi təhlükəsizlik ekran adlanan vasitələrdən istifadə etməli;*

*5. İstifadə edilməyən kompüterləri internetə qoşulu saxlamamalı;*

*6. Naməlum şəxslərdən gələn e-poçt qoşmalarını açmamalı;*

*7. Mühafizə sisteminin daim yenilənməsini təmin etməli.*

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikasında informasiya-kommunikasiya texnologiyaları yüksək inkişaf mərhələsindədir. Belə ki, muxtar respublikada internet və yeni texnologiyalara geniş üstünlük verilir. Muxtar respublika əhalisinin əksəriyyətinin internet istifadəçiləri olması bu istiqamətdə aparılan işlərin yüksək səviyyəsinin göstəricisidir. Hazırda muxtar respublikanın telekommunikasiya sisteminin 84 faizini “NGN” texnologiyasına əsaslanan yeni nəsil telekommunikasiya sistemləri təşkil edir. Muxtar respublikada mobil rabitənin təkmilləşdirilməsi məqsədilə 4-cü nəsil LTE mobil şəbəkəsi yaradılmışdır. “Evədək optika“ layihəsi uğurla davam etdirilir. Muxtar respublikada yaşayış ərazilərinin 98 faizində genişzolaqlı, 99 faizində simsiz internet xidmətləri göstərilir. Bu cür geniş şəbəkə həm dövlət qurumları, həm də özəl qurumların kibertəhlükəsizliyi məsələsini də aktuallaşdırır. Belə ki, tərəfimizdən informasiya sistemlərinin və şəbəkələrinin, kompüter avadanlıqlarının və quraşdırılmış proqram təminatının təhlükəsizliyini təmin etmək məqsədilə təhlillərin aparılması və istifadəçilərin maarifləndirilməsi daim diqqət mərkəzində saxlanılır. Eyni zamanda muxtar respublika ərazisində mövcud televiziya və radio yayımlarının fəaliyyətinə maneə törədən siqnalların müəyyən olunması, araşdırılması və həmin maneələrə qarşı müvafiq tədbirlərin görülməsi əsas vəzifələrimizdən biridir.

Bu məqsədlə muxtar respublikada istifadəçilərin internetdən təhlükəsiz istifadəsi üçün müxtəlif tədbirlər həyata keçirilir. Buna misal olaraq DATA mərkəzlərinin yaradılması və veb-serverlərə lazımi proqram təminatının quraşdırılmasını göstərmək olar. Həmçinin muxtar respublikadakı kompüter istifadəçilərinin internetə qoşularkən İP ünvanlarının viruslara yoluxmasının qarşısını almaq üçün DATA mərkəzlərində və dövlət təşkilatlarının veb-serverlərində antivirus proqramları quraşdırılmış və bazaları mütəmadi yenilənmişdir. Baş verə biləcək elektron təhlükələrdən qorunmaq üçün tətbiq olunan texnoloji yeniliklər, yeni yaranan elektron təhlükələr və onların reallaşdırılması üsulları və vasitələri barədə təhlillər aparılır.

Bundan başqa, qeyd etmək lazımdır ki, muxtar respublikada dövlət təşkilatlarının rəsmi veb-səhifələri vardır. Muxtar respublikada “Elektron hökumət” portalı yaradılıb və dövlət təşkilatları bu portal vasitəsilə öz xidmətlərini ictimaiyyətə təqdim edirlər.

“Elektron hökumət” portalına qoşulan hər bir istifadəçiyə təhlükəsiz sənəd mübadiləsini həyata keçirmək məqsədilə elektron imza kartları təklif olunur. Bütün bunları nəzərə alaraq qeyd olunan təhlükəsizlik standartlarının muxtar respublikada tətbiqi əsas şərtlərdən biridir. Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi bu sahədə daimi işlər aparır, texnologiyaların tətbiqində informasiya təhlükəsizliyinə geniş yer verilir. Nazirlik tərəfindən muxtar respublikada yaradılan elektron vasitələrin təhlükəsizliyi təmin olunur. Bu sahədə daimi inkişaf, yeniliklərin izlənməsi və tətbiqi qarşıda duran əsas vəzifələrdən biridir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

***İtmişdir***

Türkiyə vətəndaşı Burak Dalğalının adına olan şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Əli Cabbarov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1490. Sifariş № 745**